«Təsdiq edilmişdir»

“Milli Depozit Mərkəzi”
Qapalı Səhmdar Cəmiyyətinin
Səhmdarlarının Ümumi
Yığıncağının
«___» _________ 2012-ci il tarixli
qərarı

Protokol №_____

**Sədr ______________ R.Aslanlı**

# Azərbaycan Respublikasında buraxılan qiymətli kağızlara beynəlxalq identifikasiya nömrələrinin verilməsi haqqında

# Qaydalar

## 1. Ümumi müddəalar

1.1. Bu Qaydalar Azərbaycan Respublikası Prezidentinin 1997-ci il 14 may tarixli 580 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Milli Depozit Sistemi haqqında Əsasnamə”yə, Azərbaycan Respublikasının ərazisində buraxılan qiymətli kağızlara beynəlxalq identifikasiya nömrələrinin verilməsinə dair Azərbaycan Respublikasının Qiymətli Kağızlar üzrə Dövlət Komitəsi (bundan sonra “QKDK”) Sədrinin 18 sentyabr 2006-cı il tarixli 0174 nömrəli Əmrinə, İSO 6166 beynəlxalq standartlarına müvafiq hazırlanmışdır.

1.2. Bu Qaydalar Azərbaycan Respublikası Milli Nömrələyici Agentliyinin səlahiyyətlərini həyata keçirən “Milli Depozit Mərkəzi” Qapalı Səhmdar Cəmiyyəti (bundan sonra “MDM”) tərəfindən Azərbaycan Respublikasının

ərazisində buraxılan qiymətli kağızlara (bundan sonra "qiymətli kağızlar") beynəlxalq identifikasiya nömrələrinin verilməsini tənzimləyir.

1.3 Qiymətli kağızların beynəlxalq identifikasiya nömrəsi *İnternational Securities İdentification Number* (bundan sonra "İSİN kodu") – qiymətli kağızlarla əməliyyatların və hesablaşmaların aparılması zamanı qiymətli kağızları birmənalı identifikasiya edən, lakin qiymətli kağızları təsvir edən məlumatları özündə əks etdirməyən, hərf və rəqəmlərdən ibarət olan 12 işarəli beynəlxalq koddur.

## 2. İSİN kodunun verilməsi

2.1 İnvestisiya qiymətli kağızlara və səhm opsionlarına İSİN kodu MDM tərəfindən aşağıda göstərilən sənədlər təqdim edilməklə QKDK-nın müraciəti əsasında verilir:

- qiymətli kağızların dövlət qeydiyyatı haqqında sənədin surəti.

2.2. Digər qiymətli kağızlara İSİN kodu MDM tərəfindən aşağıdakı sənədlər təqdim edilməklə emitentin (bundan sonra "Ərizəçi") müraciəti əsasında verilir:

- İSİN kodunun verilməsi üçün ərizə (qiymətli kağızların hər növü üçün ayrılıqda müəyyən edilən formaya müvafiq (Forma №- 1-5).
- Qiymətli kağızların dövlət qeydiyyatı haqqında sənədin surəti;

2.3. Dövlət qiymətli kağızların hər buraxılışına İSİN kodu MDM tərəfindən aşağıdakı sənədlər təqdim edilməklə emitentin müraciəti əsasında verilir:

- İSİN kodunun verilməsi üçün yazılı müraciət;
- dövlət qeydiyyatına alınmış dövlət qiymətli kağızların emissiya prospektinin və ya dövlət qiymətli kağızların emissiyası haqqında emitentin qərarının (əmrinin) surəti.

2.4. Bu Qaydaların 2.1.-ci bəndində qeyd olunan qiymətli kağızlara İSİN kodu MDM tərəfindən 1 (bir) gün ərzində verilir və bu barədə məlumat dərhal QKDK-ya təqdim edilir.

2.5. Bu Qaydaların 2.2.-ci bəndində qeyd olunan qiymətli kağızlara İSİN kodu MDM tərəfindən 3 (üç) iş günündən gec olmayaraq verilir və bu barədə ərizəçiyə Bildiriş təqdim edilir. Bildirişin surəti MDM tərəfindən QKDK-ya təqdim olunur.

2.6. Bu Qaydaların 2.3.-ci bəndində qeyd olunan qiymətli kağızlara İSİN kodu MDM tərəfindən 1 (bir) gün ərzində verilir və bu barədə emitentə Bildiriş təqdim edilir. Bildirişin surəti MDM tərəfindən QKDK-ya təqdim olunur.

2.7. İSİN kodunun verilməsi üçün MDM ərizəçiyə və qiymətli kağızlara dair əlavə sənədlərin təqdim olunmasını tələb edə bilər. Bu halda həmin sənədlərin təqdim edildiyi gün sənədlərin təqdim edilmə tarixi sayılır.

2.8. MDM İSİN kodunun verilməsindən aşağıdakı əsaslarla imtina edə bilər:

2.8.1 İSİN kodunun verilməsi üçün təqdim olunan sənədlər natamam olduqda və ya həmin sənədlərə qeyri-dürüst, yaxud təhrif edilmiş məlumatlar daxil edildikdə;

2.8.2 Qiymətli kağızların emissiyasına dair məhkəmə mübahisəsi olduqda.

2.9. Qiymətli kağızlara İSİN kodunun verilməsindən imtina edildikdə ərizəçiyə imtinanın əsasları göstərilməklə yazılı məlumat verilir.

## 3. İSİN kodunun dəyişdirilməsi və qüvvədən düşməsi

3.1 Aşağıdakı hallarda qiymətli kağızlara yeni dovlət qeydiyyat nömrəsi verildikdə İSİN kodunun dəyişdirilməsi həyata keçirilməlidir:

3.1.1 Qiymətli kağızların nominal dəyərinin artması və ya azaldılması;

3.1.2 Qiymətli kağızların birləşdirilməsi;

3.1.3 Qiymətli kağızların xırdalanması;

3.1.4 Qiymətli kağızların konvertasiyası.

3.2 İSİN kodunun dəyişdirilməsi QKDK tərəfindən təqdim olunan məlumatlar əsasında 1 (bir) iş günü müddətində həyata keçirilir.

3.3. İSİN kodunun qüvvədən düşməsi aşağıdakı əsaslarla həyata keçirilir:

3.3.1 Qiymətli kağızların dövriyyədən çıxarılması;

3.3.2 Qiymətli kağızların emissiyasının baş tutmamış və ya etibarsız hesab edilməsi;

3.3.3 Qanunvericiliklə qiymətli kağızların ləğvinə əsas olan digər hallar.

3.4 Qüvvədən düşmüş İSİN kodu yenidən istifadəyə verilmir.

3.5 İSİN kodunun dəyişdirilməsinə və ya qüvvədən düşməsinə əsas olan hallar baş verdikdə MDM-ə QKDK tərəfindən məlumat verilir.

3.6 İSİN kodunun dəyişdirilməsi və ya qüvvədən düşməsi haqqında ərizəçiyə və QKDK-ya yazılı məlumat verilir.

## 4. İSİN kodları üzrə məlumatın açıqlanması

4.1. Qiymətli kağızlara verilən İSİN kodları haqqında məlumatlar İSİN kodları üzrə məlumat bazasına daxil edilir və MDM-in internet səhifəsində açıqlanır.

## 5. Məsuliyyət

5.1. Bu Qaydalarda qeyd olunan müddəaları pozan şəxslər Azərbaycan Respublikasının qüvvədə olan qanunvericiliyinə müvafiq surətdə məsuliyyət daşıyırlar.

## 6. Keçid müddəalar

6.1. Bu Qaydaların qüvvəyə minmə tarixinədək investisiya qiymətli kağızlara verilən İSİN kodların dəyişdirilməsi QKDK tərəfindən investisiya qiymətli kağızların buraxılışlarına yeni dövlət qeydiyyat nömrəsinin verilməsindən sonra həyata keçirilir.

## 7. Qüvvəyə minmə

7.1. Bu Qaydalar imzalandığı gündən qüvvəyə minir.

**Səhmlərə İSİN kodunun verilməsi üçün**

**Ərizə**

**<u>Emitent haqqında məlumat</u>**

Tam hüquqi adı:
(Nizamnaməyə müvafiq) ____________________

***(Azərbaycan dilində)***

____________________

***(İngilis dilində)***

Qısaldılmış hüquqi adı:
(Nizamnaməyə müvafiq) ____________________

***(Azərbaycan dilində)***

____________________

***(İngilis dilində)***

Hüquqi ünvanı: ____________________

Poçt ünvanı: ____________________

VÖENi: ____________________

**<u>Səhmlər haqqında məlumat</u>**

Növü: Adi ☐ İmtiyazlı ☐

Buraxılış forması: Adlı sənədsiz ☐ Adlı sənədli ☐ Adsız sənədli ☐

Buraxılışın dövlət qeydiyyatı nömrəsi: ____________ Buraxılışın dövlət qeydiyyatının tarixi: ____________

Buraxılışda səhmlərin sayı (ədəd): ____________ Nominal dəyər: ____________

| |
|---|
| Ərizədə göstərilən məlumatların düzgünlüyünə görə emitent məsuliyyət daşıyır.<br>Natamam və ya qeyri-dürüst məlumatın göstərilməsi nəticəsində emitentə dəyən zərərə görə MDM məsuliyyət daşımır. |

**Bu ərizəni imzalamaqla emitent qiymətli kağızlara İSİN kodunun verilməsinə razılığını bildirir:**

İmza:

______________________________ ______________________________

(A.S.A.)

M.Y.

Forma №2

Azərbaycan Respublikasının Qiymətli Kağızlar üzrə Dövlət Komitəsi
Milli Depozit Mərkəzi
Qiymətli kağızlara beynəlxalq identifikasiya kodlarının verilməsi üzrə Milli Nömrələyici Agentlik

## İstiqrazlara İSİN kodunun verilməsi üçün
## Ərizə

**Emitent haqqında məlumat**

Tam hüquqi adı:
(Nizamnaməyə müvafiq) ______________________________

*(Azərbaycan dilində)*

______________________________

*(İngilis dilində)*

Qısaldılmış hüquqi adı:
(Nizamnaməyə müvafiq) ______________________________

*(Azərbaycan dilində)*

______________________________

*(İngilis dilində)*

Hüquqi ünvanı: ______________________________

Poçt ünvanı: ______________________________

VÖENi: ______________________________

**İstiqrazlar haqqında məlumat**

Növü: Faizli ☐ Faizsiz ☐

Təminatlı ☐ Təminatsız ☐

Buraxılış forması: Adlı sənədsiz ☐ Adlı sənədli ☐ Adsız sənədli ☐

Buraxılışın dövlət qeydiyyatı nömrəsi: ____________ Buraxılışın dövlət qeydiyyatının tarixi: ____________

Buraxılışda istiqrazların sayı (ədəd): ____________ Nominal dəyər: ____________

Yerləşdirilmənin başlanma tarixi: ______________ Dövriyyənin müddəti: ______________

Yerləşdirilmənin sona çatma tarixi: ______________ Ödəniş tarixi: ______________

**<u>Təminat haqqında məlumat</u>**

(istiqrazlar təminatlı olduqda doldurulur)

Təminatın növü: Girov ☐ Qarantiya ☐ Zəmanət ☐

Təminatçının tam hüquqi adı:

(Nizamnaməyə müvafiq) ______________________________

*(Azərbaycan dilində)*

______________________________

*(İngilis dilində)*

Təminatçının hüquqi ünvanı: ______________________________

**<u>Faizlərin ödənilməsinə dair məlumat</u>**

Faiz gəliri ( %-lə): ______________ Faiz gəliri (valyuta ilə): ______________

Faiz müddətinin başlanma tarixi: ______________ Faiz müddəti: ______________

Faizin ödənilmə tarixi: ______________

**<u>İstiqrazların vaxtından əvvəl ödənilməsinə dair məlumat</u>**

Tələbin təqdim olunmasının başlanması tarixi: ______________ Tələbin təqdim olunmasının sona çatması tarixi: ______________

Vaxtından əvvəl ödənilmənin tarixi: ______________

Ərizədə göstərilən məlumatların düzgünlüyünə görə emitent məsuliyyət daşıyır.

Natamam və ya qeyri-dürüst məlumatın göstərilməsi nəticəsində emitentə dəyən zərərə görə MDM məsuliyyət daşımır.

**Bu ərizəni imzalamaqla emitent qiymətli kağızlara İSİN kodunun verilməsinə razılığını bildirir:**

İmza: ______________ ______________________

(A.S.A.)

M.Y.

Azərbaycan Respublikasının Prezidenti yanında Qiymətli Kağızlar üzrə Dövlət Komitəsi
Milli Depozit Mərkəzi
Qiymətli kağızlara beynəlxalq identifikasiya kodlarının verilməsi üzrə Milli Nömrələyici Agentlik

**Mənzil sertifikatlarına İSİN kodunun verilməsi üçün**

**Ərizə**

**Emitent haqqında məlumat**

Tam hüquqi adı:
(Nizamnaməyə müvafiq) ______________________________
*(Azərbaycan dilində)*

______________________________
*(İngilis dilində)*

Qısaldılmış hüquqi adı:
(Nizamnaməyə müvafiq) ______________________________
*(Azərbaycan dilində)*

______________________________
*(İngilis dilində)*

Hüquqi ünvanı: ______________________________

Poçt ünvanı: ______________________________

VÖENi: ______________________________

**Mənzil sertifikatı haqqında məlumat**

Növü: Təminatlı ☐ Təminatsız ☐

Buraxılışın forması: Adlı sənədli ☐ Adsız sənədli ☐

Buraxılışın dövlət qeydiyyatı nömrəsi: ________________ Buraxılışın dövlət qeydiyyatının tarixi: ________________

Buraxılışın ümumi həcmi: ________________ Buraxılışda mənzil sertifikatlarının sayı (ədəd): ________________

Ödənilmə tarixi: ________________

**Təminat haqqında məlumat**

(mənzil sertifikatları təminatlı olduqda doldurulur)

Təminatın növü: Girov ☐ Qarantiya ☐ Zəmanət ☐

Təminatçının tam hüquqi adı:
(Nizamnaməyə müvafiq)

______________________________
***(Azərbaycan dilində)***

______________________________
***(İngilis dilində)***

Təminatçının hüquqi ünvanı: ______________________________

| |
|---|
| Ərizədə göstərilən məlumatların düzgünlüyünə görə emitent məsuliyyət daşıyır.<br>Natamam və ya qeyri-dürüst məlumatın göstərilməsi nəticəsində emitentə dəyən zərərə görə MDM məsuliyyət daşımır. |

**Bu ərizəni imzalamaqla emitent qiymətli kağızlara İSİN kodunun verilməsinə razılığını bildirir:**

İmza: ____________________ ______________________________
(A.S.A.)

M.Y.

Forma №4

Azərbaycan Respublikasının Kağızlar üzrə Dövlət Komitəsi
Milli Depozit Mərkəzi
Qiymətli kağızlara beynəlxalq identifikasiya kodlarının verilməsi üzrə Milli Nömrələyici Agentlik

**Köçürmə vekselinə İSİN kodunun verilməsi üçün**

**Ərizə**

**Vekselverən (Trassant) haqqında məlumat**

Tam hüquqi adı:
(Nizamnaməyə müvafiq) ______________________________
*(Azərbaycan dilində)*

______________________________
*(İngilis dilində)*

Qısaldılmış hüquqi adı:
(Nizamnaməyə müvafiq) ______________________________
*(Azərbaycan dilində)*

______________________________
*(İngilis dilində)*

Hüquqi ünvanı: ______________________________

Poçt ünvanı: ______________________________

VÖENi: ______________________________

**Veksel haqqında məlumat**

Nömrəsi və seriyası: _______________ Verilmə tarixi: _______________

Verilmə yeri: _______________ Borcun məbləği: _______________

Ödəniş müddəti: _______________ Ödəniş yeri: _______________

Veksel üzrə faiz dərəcəsi
(olduqda): _______________

**Trassat haqqında məlumat**

Tam hüquqi adı:
(Nizamnaməyə müvafiq) ______________________________

*(Azərbaycan dilində)*

*(İngilis dilində)*

Qısaldılmış hüquqi adı:
(Nizamnaməyə müvafiq)

*(Azərbaycan dilində)*

*(İngilis dilində)*

Hüquqi ünvanı:

Poçt ünvanı:

VÖENi:

**Avalçı haqqında məlumat**
(avalçı olduqda doldurulur)

Tam hüquqi adı:
(Nizamnaməyə müvafiq)

*(Azərbaycan dilində)*

*(İngilis dilində)*

Qısaldılmış hüquqi adı:
(Nizamnaməyə müvafiq)

*(Azərbaycan dilində)*

*(İngilis dilində)*

Hüquqi ünvanı:

Poçt ünvanı:

VÖENi: Təminatın məbləği:

Ərizədə göstərilən məlumatların düzgünlüyünə görə emitent məsuliyyət daşıyır.
Natamam və ya qeyri-dürüst məlumatın göstərilməsi nəticəsində vekselverənə dəyən zərərə görə MDM məsuliyyət daşımır.

**Bu ərizəni imzalamaqla vekselverən köçürmə vekselinə İSİN kodunun verilməsinə razılığını bildirir:**

İmza:

________________________ ______________________________________

(A.S.A.)

M.Y.

Forma№ 5

Azərbaycan Respublikasının Qiymətli Kağızlar üzrə Dövlət Komitəsi
Milli Depozit Mərkəzi
Qiymətli kağızlara beynəlxalq identifikasiya kodlarının verilməsi üzrə Milli Nömrələyici Agentlik

**Sadə vekselə İSİN kodun verilməsi üçün**

**Ərizə**

**Vekselverən haqqında məlumat**

Tam hüquqi adı:
(Nizamnaməyə müvafiq) ______________________________

***(Azərbaycan dilində)***

______________________________

***(İngilis dilində)***

Qısaldılmış hüquqi adı:
(Nizamnaməyə müvafiq) ______________________________

***(Azərbaycan dilində)***

______________________________

***(İngilis dilində)***

Hüquqi ünvanı: ______________________________

Poçt ünvanı: ______________________________

VÖENi: ______________________________

**Veksel haqqında məlumat**

Nömrəsi və seriyası: ______________ Verilmə tarixi: ______________

Verilmə yeri: ______________ Ödəniş yeri: ______________

Borcun məbləği: ______________ Ödəniş müddəti: ______________

| |
|---|
| Ərizədə göstərilən məlumatların düzgünlüyünə görə emitent məsuliyyət daşıyır.<br>Natamam və ya qeyri-dürüst məlumatın göstərilməsi nəticəsində vekselverənə dəyən zərərə görə MDM məsuliyyət daşımır. |

İmza: ______________ Tarix: ______________

M.Y.

**Bu ərizəni imzalamaqla vekselverən vekselə İSİN kodunun verilməsinə razılığını bildirir:**

İmza: ____________________________ ____________________________________________

(A.S.A.)

M.Y.